Ədalət.- 2020.- 9 iyun. S. 5.

# ÖLƏN DÜNYA

**... Eyvanımdan şəhərə baxıram. Bütün küçələr bomboşdu. Və bomboş olan küçələrdə tək-tük maşınlar gözə dəyir. Bu maşınlar da ya yol polisinə məxsusdu, ya Çevik Polis Alayına, ya da Daxili İşlər Nazirliyinin digər strukturlarına. Və küçədə gözə dəyən bir də o yan-bu yana gedən və bəzən də adam görəndə qaçan itlər və quşlardı. Sanki şəhər donub və hər şey hərəkətsiz qalıb. Daha doğrusu, Bakının belə gününü heç vaxt görməmişdim. Və eyvandan baxanda günəşin şəfəqləri məni bir qədər isidir. İçimdəki ətaləti, soyuqluğu və sükutu bir göz qırpımında əridir, ölən dünyamızın ümid işığı boylanır...**

... Həftənin şənbə-bazar günləri karantin rejiminin sərtləşdirilməsi çoxlarının ovqatını qaraldır. Heç mənim ovqatım da bir o qədər yaxşı deyil. Elə eyvandan boylana-boylana qalmışam. Təbii ki, bu cür ciddi addımların atılması zərurətdən doğub. Gəlin açıq etiraf edək ki, biz insanların əksəriyyəti nə qədər maarifləndirmə və izahat işlərinin aparılmasıma baxmayaraq, koronavirusun böyük bəla törətdiyini hələ də qəbul eləmək istəmirik. Və hələ də düşünürük ki, bunlar boş şeydi. Ancaq boş şey saydığımız və əhəmiyyət vermədiyimiz bu bəla artıq bizim qapımızı döyür. Ancaq istəsəydik və birlikdə olsaydıq, bu təhlükəli virusun yayılmasının qarşısını ala bilərdik. Təəssüf ki, biz həmişə olduğu kimi indi də bir yerdə ola bilmirik.



### Karantin rejimi

***ilə bağlı qoyulan qadağalara tək insanlar deyil, eləcə də üzərinə mühüm vəzifə düşən bəzi qurumlar da səhlənkarlıq edirlər. Bu necə karantin rejimidir ki, Bakı şəhərində əksər avtobus marşrutlarında bu rejimə əməl olunmur. Hansı marşruta minirsən ayaq üstə duran adamların əlindən tərpənmək mümkün deyil. Hansı ki, karantin rejiminin qaydalarına görə, ara məsafəsi saxlanılmalıdır. Ayaq qoymağa yer tapmadığın bir avtobusda hansı məsafə saxlanılmasından söhbət gedə bilər?! Hər gün 50 nömrəli marşrutdan isifadə eləyirəm. Və eyni zamanda bu yaxınlarda 206 nömrəli avtobusa minib dostumgilə gedirdim. Hər iki marşrutda karantin rejiminin qaydaları kobud surətdə pozulur.***

Hətta sürücülərin özləri maskadan istifadə etmir və sürücülər üçün sellofdan kabinə düzəlməyib. Bəzilərində bu sellofanlar cırılıb və sıradan çıxıb. 50 nömrəli marşrutda dezinfeksiya üçün spirt olsa da, 206 nömrəli avtobusda bu spirt doldurulmuş qutular gözə dəymirdi. Birində qutu vardı, onun da içərisində spirt yox idi. Belə olan halda hansı karantin qaydalarından danışmaq olar? Bakı Nəqliyyat Agentliyi zəhmət çəkib daşıyıcı şirkətlər qarşısında ciddi məsələlər qoymalıdır ki, həmin avtobusların sahibləri karantin rejiminə əməl eləsinlər. Çox təəssüf ki, bu məsələni nə Bakı Nəqliyyat Agentliyi həll edir, nə də daşıyıcı şirkətlər.

### Heç düşünən yoxdur ki,

**koronavirus elə ən çox ictimai nəqliyyatda yayılır. Çünki çox adam maskadan istifadə etmir, gigiyenik və sanitar qaydalara əməl eləmir. Yeganə, metroda sərnişinlərə maska taxmaq tələb olunur.**

Məsələn, iyunun 8-də saat 10:00 radələrində metronun "28 may" stansiyasında Dərnəgülə gedən qatarı gözləyən bir qız maska taxmamışdı. Polis əməkdaşı ona mədəni və sivil qaydada maska taxmağı xahiş etdi. Qız isə iki ayağını bir başmağa dirəyib dedi ki, mən maskanı taxmaram ki, taxmaram. Polis nə qədər mədəni davranırdısa, qız bir o qədər kobud rəftar edirdi.

Hətta çantasıyla polisə bir neçə zərbə də vurdu. Təbii ki, karantin qaydasını pozmuş bu qız qanunauyğun şəkildə məsuliyyətə cəlb ediləcək. Amma hər kəs bilməlidir ki, avtobus və metroda maska taxmaq məcburidir.

Əgər 50 manat cərimə edilmək istəmirsənsə və virusa yoluxmaqdan canını qurtarmaq istəyirsənsə, maska taxmalısan və sakitcə hara istəyirsən gedə bilərsən. Başqa bir məsələ isə maskalarla bağlıdır. Virus ölkəmizə gəlməmişdən öncə xaricdən gətirilən maskanın qiyməti 10 qəpik idi. İndi öz ölkəmizdə maska istehsal olunur, o da 30 qəpiyə. Axı hər adamın gücü çatmır ki, 30 qəpik verib maska alsın. Və 30 qəpiyə alınan maska isə deyilənlərə görə, iki saatdan bir dəyişilməlidir. Belə çıxır ki, biz özümüzü qorumaq istəyiriksə, gün ərzində ən azı 4-5 maskadan istifadə etməliyik. Bu da 2 manata yaxın pul eləyir. İndi bu iki manatı hər adam tapıb maska ala bilmir axı. Ya keyfiyyətli maska istehsal olunmalıdır, ya da bir çox halda iş yerlərində maskalar insanlara pulsuz verilməlidir. Necə ki, bir çox qurumlara maskalar pulsuz verilir.

### Başa düşmək olmur,

Operativ Qərargah virusa yoluxanlar 70-80 nəfər olanda daha sərt rejim tətbiq eləmişdi. İndi bir həftədən çoxdur ki, virusa yoluxanların sayı 300-dən 350-yə qədər hər gün artır, yumuşalmalar isə davam eləyir. Heç bu virusun artdığı vaxtda ticarət mərkəzlərinin, molların açılmasına ehtiyac vardı? Bəs onda Operativ Qərargahın atdığı addımlar niyə müsbət nəticə vermədi? İndi də məcbur olub şənbə-bazar günləri Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Abşeron rayonunda 2 günlük sərt karantin rejimi tətbiq etdilər. Bu iki günlə məsələ həll edildimi? Bax, bunu biz deyə bilmərik. Əgər bazar ertəsindən cümə gününə qədər iş varsa, deməli, bu virus yenə sürətlə yayılacaq. Sadəcə olaraq, məhdudiyyətlərin və yumuşalmaların vaxtından tez həyata keçirilməsi bu fəsadların yaranmasına şərait yaratdı. Hansı ki, bəzi mütəxəssislər və ekspertlər deyirdilər ki, bu yumuşaltmaya getmək hələ tezdir.

**Faktlar isə vəziyyətin get-gedə ağırlaşdığını təsdiq edir. Artıq 3000-dən çox koronavirusa yoluxmuş xəstələr xəstəxanaya yerləşdirilib.**

Hansı ki, yumuşaltmadan əvvəl həmin xəstələrin sayı 500-600, sağalanlar isə daha çox idi. İndi həmin mənzərəni gözümüz önünə gətirsək, əsl vəziyyətin necə olduğunu təsəvvür etmək çətin deyil.

### Deyilənlərə görə,

**sərt karantin rejimi bu həftənin şənbə-bazar və bayram günündə də tətbiq olunacaq. Qoy olsun! Amma əsas məsələ odur ki, ötən həftə tətbiq edilən karantin rejimi zamanı baş verən neqativ hallar təkrarlanmasın. Yəni həyat üçün zəruri olan məqamlar var ki, onların işləməsi mütləq vacibdir. Bu, çörək və apteklərdi.**

Çünki istehsalçılar öncədən 2 gün ərzində Bakıda əhalinin çörəyə olan ehtiyacını



nəzərə almamışdılar. Bütün bunlar Opreativ Qərargah tərəfindən diqqətdə saxlanılmalı idi. Təəssüf ki, bu məsələlər bir qədər unudulmuşdur. Ötən cümə axşamı saat 16:00-17:00 radələrində əksər çörək mağazalarında və marketlərdə çörək yox idi. İnsanlar növbəyə duraraq çörəyin gəlməsini gözləyirdilər. Onları qınamalı deyil. Elə ailə var 8-9 üzvü var. İki gün bu ailəyə nə az, nə çox 15-16 çörək lazımdır. Aydındır ki, növbəyə durub çörək ala bilməyən adam daha da aqreesiv və gərgin olur.

Xətai rayonunda evində çörəyi qutaran bir sakin kömək üçün "102" xidmətinə zəng edib. Polislər həmin adama çörək alıb gətirib. O sakin də bu qayğı və diqqətə görə, Çevik Polis Alayının əməkdaşlarına təşəkkürünü bildirib. Sözümüzün canı odur ki, indi növbəti karantin rejiminin sərtləşdiyi dövrlərdə əhali belə çörək çətinliyi ilə üzləşməsin. Ümidvarıq ki, Operativ Qərargah bir çox məsələləri nəzərə alasaq, karantin rejiminin qaydalarına uyğun olaraq müəyyən problemləri öz yoluna qoyacaqdır.

**Ölən dünyamızı ayağa qaldırmağa hamı çalışmalıdır. Çünki bu dünya da, bu şəhər də, bu qəsəbə də, bu küçələr də, bu prospektlər də insansız yetim bir uşağa bənzəyir. İnsan yoxsa, nə bu dünyanın gözəlliklərinin, nə də əsrarəngsizliyinin heç bir mənası yoxdur.**

**Faiq QİSMƏTOĞLU**